**Azərbaycan parlamentində "COP29-a qarşı hibrid təhdidlər" mövzusunda ictimai müzakirə aparılır**

Oktyabrın 21-də Milli Məclisinin Xarici müdaxilələrə və hibrid təhdidlərə qarşı müvəqqəti komissiyasının ilk iclası keçirilir.

AZƏRTAC xəbər verir ki, iclasda "COP29-a qarşı hibrid təhdidlər" mövzusunda ictimai müzakirə aparılır.

Qeyd edək ki, Milli Məclisin Xarici müdaxilələrə və hibrid təhdidlərə qarşı müvəqqəti komissiyası VII çağırışın ilk sessiyasında yaradılıb. Deputat Ramid Namazov komissiyanın sədri seçilib. Komissiyanın üzvləri isə Əminə Ağazadə, Kamran Bayramov, Nurlan Həsənov, Sevil Mikayılova, Rasim Musabəyov, Qaya Məmmədov, Gülşən Paşayeva və Zaur Şükürovdur.

**AZƏRTAC**
**2024, 21 oktyabr**